*“Silahlı Qüvvələrin yaradılması Azərbaycanın dövlət müstəqilliyini və suverenliyini təsdiq edən, onu nümayiş etdirən amillərdən biridir”.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 26 iyun 2015-ci il № 49 (1965) Qiyməti 25 qəpik


## Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıdakı hərbi qulluqçularına general-mayor ali hərbi rütbəsi verilsin:

polkovnik Axundzadə Yusif Yevgeniyeviç
polkovnik Eyyubov Teymur Tərlan oğlu
polkovnik Əliyev İkram Zülfü oğlu
polkovnik Hüseynov Zahid İbrahim oğlu
polkovnik Orucov Elman İzzət oğlu.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 iyun 2015-ci il.

## Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına və mülki işçilərinə fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının Silahlı Qüvvələrində şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsində səmərəli fəaliyyətlərinə, mədəniyyətin, təhsilin, səhiyyənin inkişafındakı xidmətlərinə görə Silahlı Qüvvələrin hərbi qulluqçularına və mülki işçilərinə Azərbaycan Respublikasının aşağıdakı fəxri adları verilsin:

**"Xalq artisti"**
Tağıyeva Anaxanım Ehtibar qızı - baş leytenant

**"Əməkdar mədəniyyət işçisi"**
İmamquliyev Zöhrab Həmzə oğlu - polkovnik-leytenant
Bayramova Zəminə Məhəmməd qızı

**"Əməkdar müəllim"**
Həsənova Lalə Sadıq qızı
Məmmədov Bayram Heydər oğlu

**"Əməkdar həkim"**
Babayev Famil Əlikərəm oğlu - tibb xidməti polkovniki
Əliyev İbrahim Alxan oğlu - tibb xidməti polkovniki
İbrahimov Elxan Paşa oğlu - tibb xidməti polkovniki.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 iyun 2015-ci il.

Müdafiə naziri general-polkovnik Zakir HƏSƏNOV:

## “Silahlı Qüvvələrimiz qarşıya qoyulan bütün tapşırıqları uğurla yerinə yetirməyə qadirdir”

***İyunun 26-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 97-ci ildönümü tamam olur. Bu münasibətlə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ötən ildən bu günədək ordumuzun vəziyyəti, əsas prioritetləri, aparılan islahatlar, əldə olunan nailiyyətlər və qarşıda duran vəzifələr barədə fikirlərini bölüşüb.***

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu ordu dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində Cənubi Qafqazın ən qüdrətli ordusuna çevrilərək döyüş hazırlığına görə Müstəqil Dövlətlər Birliyi məkanında ön sıralarda qərarlaşıb.

Ordumuzun döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsi, şəxsi heyətin müasir silah və texnikadan məharətlə istifadə bacarığına yiyələnməsi üçün maddi-texniki bazanın inkişaf etdirilməsi, qabaqcıl üsulların tətbiqi ilə təlim və tədris sisteminin daim təkmilləşdirilməsi, hərbi təhsilin və hərb elminin günün tələbləri səviyyəsinə qaldırılması üzrə bir sıra əhəmiyyətli tədbirlər görülərək bu sahədə işlər davam etdirilir, şəxsi heyətin yeni döyüş şəraitinə uyğun təlimlərinə diqqət artırılır.

(Ardı 3-cü səhifədə)

# Qaradağ rayonunda Hərbi Dəniz Qüvvələrinin yeni bazasının və “N” hərbi hissəsinin açılışı olub

## Prezident, Ali Baş Komandan İlham Əliyevin nitqi

- Əziz hərbçilər!

Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə ürəkdən təbrik edirəm, Azərbaycan Silahlı Qüvvələrinin bütün şəxsi heyətinə yeni uğurlar arzulayıram.

Bu gözəl bayram ərəfəsində ölkəmizin həyatında çox əlamətdar hadisə baş verir. Biz bu gün Hərbi Dəniz Qüvvələrinin bazasının açılışına toplaşmışıq. Bu hadisə ölkəmizin gücünü, qüdrətini göstərir. Bu baza ən yüksək dünya standartlarına cavab verir, son illər ərzində Azərbaycanda yaradılmış ən böyük hərbi obyektlərdən biridir. Həmçinin, Xəzər hövzəsində də ən böyük hərbi obyektlərdən biridir. Bir neçə il bundan əvvəl mənim qərarımla biz bu bazanın tikintisinə başlamışdıq və artıq baza açılır. Əminəm ki, ölkəmizin hərbi potensialının gücləndirilməsi üçün bu bazanın çox böyük əhəmiyyəti olacaqdır.

Bu gün burada köhnə bazanın fotoşəkilləri ilə tanış oldum. Bir daha gördüm ki, o baza bizim tələblərimizə cavab vermirdi, köhnəlmişdi. Bu gün dünya miqyasında iqtisadi və maliyyə böhranının davam etməsinə baxmayaraq, Azərbaycan dövləti güclü dövlətdir və ordu quruculuğu, hərbi potensialın gücləndirilməsi üçün bütün lazımi tədbirləri görür. Hərbi Dəniz Qüvvələrinin inkişafına diqqət göstərilir, gəmilər əsaslı təmir edilir, müasir infrastruktur, belə gözəl, möhtəşəm hərbi bazalar yaradılır. Hərbi Dəniz Qüvvələri Silahlı Qüvvələrimizin tərkib hissəsidir. Hərbi Dəniz Qüvvələrinin inkişafı gələcəkdə də diqqət mərkəzində olacaqdır.

Qeyd etməliyəm ki, Xəzər sülh, əməkdaşlıq dənizidir. Azərbaycan dövlətinin mövqeyi bundan ibarətdir. Biz çalışırıq ki, Xəzər dənizində sülhün, əməkdaşlığın dərinləşməsi üçün öz təşəbbüslərimizi irəli sürək. Şadam ki, bütün qonşu dövlətlər də bu mövqeyi bölüşür. Xəzəryanı ölkələr arasında mövcud olan dostluq, əməkdaşlıq münasibətləri Xəzərdə sülhün, təhlükəsizliyin qarantıdır. Bir çox hallarda Azərbaycan regional əməkdaşlıq təşəbbüslərini irəli sürür, o cümlədən Xəzəryanı ölkələri birləşdirən təşəbbüslər də Azərbaycan tərəfindən irəli sürülür. Gələcəkdə qonşu dövlətlərlə bizim dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq əsasında qurulan münasibətlərimiz inkişaf edəcək və bu, regionda, Xəzər regionunda sülhün təminatçısıdır.

Azərbaycanda ordu quruculuğu prosesi uğurla gedir. Bu, bizim üçün prioritet məsələdir. Ordumuz inkişaf edir, güclənir. Orduda nizam-intizam artır, aparılan islahatlar öz bəhrəsini verir. Ordumuzun döyüş qabiliyyəti artır, maddi-texniki təminat yaxşılaşır. Bildiyiniz kimi, Azərbaycanın dövlət büdcəsinin əsas xərcləri hərbi xərclərdir. Biz bundan sonra da hərbi xərclərimizi ən yüksək səviyyədə saxlayacağıq və ordunun bütün tələbatlarını ödəyəcəyik.

Son illər ərzində ordumuzun maddi-texniki bazası böyük dərəcədə artmışdır. Sadəcə olaraq hərbi məqsədlərə ayrılan vəsaitin həcminə baxmaq kifayətdir ki, bunu hər kəs görsün. On il bundan əvvəl bizim hərbi xərclərimiz heç 200 milyon dollara çatmırdısa, bu gün bu xərclər 3 milyard dollardan artıqdır. Müqayisə üçün deyə bilərəm ki, Azərbaycanda hərbi xərclər Ermənistanın dövlət büdcəsindən təxminən 2 dəfə çoxdur. Bu, əlbəttə ki, ölkəmizin gücünü göstərir, eyni zamanda, orduya göstərilən diqqətin təzahürüdür.

Hərbçilərin məişət problemləri də həllini tapır, maaşlar artırılır və 20 il orduda qüsursuz xidmət edən hərbçilərə dövlət tərəfindən mənzillər verilir. Hərbi infrastruktur yaradılır. Mənim göstərişimlə bu gün ölkəmizin bütün bölgələrində yeni bazalar, hərbi hissələr, şəhərciklər tikilir. Eyni zamanda, hərbçilərin məişət



və xidmət problemləri də yüksək səviyyədə həll olunur. Hərbi infrastrukturun yaradılması prosesi bundan sonra da davam etdiriləcək, hələ görüləsi işlər çoxdur. Ancaq deyə bilərəm ki, qısa müddət ərzində çox böyük işlər görülüb. Hərbçilər də bunu yaxşı bilirlər, mən də mütəmadi surətdə hərbi hissələrdə olarkən bunu öz gözümlə görürəm və bu istiqamətdə işlər bundan sonra da davam etdiriləcək. Bir sözlə, ordumuzun döyüş qabiliyyəti, vətənpərvərlik ruhu yüksək səviyyədədir, maddi-texniki təchizat ən yüksək səviyyədədir. Hərbçilərin məişət problemləri həll olunur, hərbi infrastruktur yaradılır.

Qeyd etməliyəm ki, son illər ərzində Azərbaycan hərbi potensialını böyük dərəcədə artıra bilmişdir. Ölkəmizə ən müasir silah-sursat, texnika, avadanlıq gətirilir. Bu gün maddi-texniki təchizat və döyüş qabiliyyəti baxımından Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bu gün əldə etdiyimiz silah və texnika bizə imkan verir ki, istənilən vəzifəni şərəflə yerinə yetirək. Bununla bərabər, təxminən 10 il bundan əvvəl mənim qərarımla Azərbaycanda hərbi sənaye kompleksi yaradılmağa başlamışdır. Bu gün Azərbaycanda minə yaxın adda hərbi təyinatlı məhsul istehsal edilir və bu da ordumuzun təchizatı üçün əvəzolunmaz haldır. Beləliklə, biz idxaldan asılılığımızı böyük dərəcədə azaltmışıq. Ancaq yüksək dəqiqliyə və böyük dağıdıcı qüvvəyə malik olan müasir silah-sursat, döyüş helikopterləri, döyüş təyyarələri alınır. Ordumuz üçün lazım olan qalan bütün ləvazimat, avadanlıq, texnika, mərmilər, patronlar Azərbaycanda istehsal edilir. Biz hətta hərbi məhsullarımızı ixrac etməyə başlamışıq. Azərbaycan dünyanın aparıcı beynəlxalq hərbi sərgilərində öz məhsullarını nümayiş etdirir. Artıq Bakıda da beynəlxalq sərgi keçirilmişdir ki, bu da ölkəmizin hərbi potensialının göstəricisidir.

Qeyd etdiyim kimi, ordu quruculuğu bizim üçün prioritet məsələdir və bu, gələcəkdə də belə olacaq. Nəzərə alsaq ki, biz müharibə şəraitində yaşayırıq, əlbəttə, bu, belə də olmalıdır. Ancaq müasir dünyada gedən proseslər, qanlı toqquşmalar, müxtəlif regionlarda yaranan hərbi münaqişələr diktə edir ki, hətta müharibə şəraitində olmayan ölkələr də hərbi və ordu quruculuğunu prioritet kimi qəbul etsinlər.

Bizim ən böyük problemimiz torpaqlarımızın işğal altında qalmasıdır. Uzun illər bu ədalətsizlik davam edir. 1990-cı illərin əvvəllərində o vaxtkı Azərbaycan rəhbərliyinin səriştəsizliyi, xəyanəti nəticəsində torpaqlarımız işğal altına düşmüşdür. Əfsuslar olsun ki, bütün beynəlxalq təşkilatların qərarlarına rəğmən bu işğal davam edir. Beynəlxalq hüquq normaları kobudcasına pozulur, ancaq dünya ictimaiyyəti buna biganə qalır. BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı dörd qətnamə qəbul etmişdir. Orada da göstərilir ki, erməni silahlı qüvvələri torpaqlarımızdan qeyd-şərtsiz çıxarılmalıdır. İyirmi ildən çox vaxt keçib, ancaq bu qətnamələr icra edilmir. Bu, bizə, dövlətimizə, xalqımıza qarşı böyük ədalətsizlikdir. Ancaq bugünkü dünya əfsuslar olsun ki, ədalətsizlik üzərində qurulur. Beynəlxalq hüquq pozulur, işğalçı dövlətə heç bir təzyiq göstərilmir, işğala məruz qalan ölkəyə də heç bir dəstək göstərilmir.

Belə olan halda, əlbəttə ki, ancaq və ancaq öz gücümüzə güvənməliyik və biz bunu edirik. Əlbəttə, beynəlxalq təşkilatların sənədləri, qətnamələri, qərarları bizim siyasi, diplomatik imkanlarımızı artırır. Bu gün heç bir ölkə Dağlıq Qarabağı bir qurum kimi tanımır. Bu, bizim böyük siyasi və diplomatik uğurumuzdur. Beynəlxalq təşkilatların qərarları münaqişənin həlli üçün hüquqi bazanı yaradır. Bu hüquqi baza, eyni zamanda, tarixi ədalət üzərində qurulubdur. Çünki Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşamış, yaratmışdır. O torpaqlarda yaradılan tarixi abidələrimiz bir daha onu göstərir ki, bu, bizim tarixi, əzəli torpağımızdır. Nəinki Dağlıq Qarabağ bizimdir, hətta bugünkü Ermənistan tarixi Azərbaycan torpaqları üzərində qurulubdur. Biz hamımız bunu yaxşı bilirik. Dünya da bunu artıq bilir. İrəvan xanlığı, Göyçə, Zəngəzur mahalı bizim tarixi torpaqlarımızdır və biz azərbaycanlılar o torpaqlara da qayıtmalıyıq və qayıdacağıq.

Bugünkü dünyada güc amili əsas rol oynayır. "Kim güclüdür, o da haqlıdır" prinsipi əsas prinsipdir. Bu, reallıqdır. Biz real dünyada yaşayırıq. Əlbəttə, beynəlxalq davranış qaydaları, beynəlxalq hüquq normaları var və beynəlxalq təşkilatlar fəaliyyət göstərir. Ancaq biz bu fəaliyyətin konkret nəticələrini görmürük. Bir daha qeyd etmək istəyirəm ki, bir çox hallarda dövlətimizə, xalqımıza qarşı ədalətsizlik görürük. Necə olur ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri bəzi hallarda saatlar içində icra edilir. Bizə gəldikdə isə 20 il keçibdir, bu qətnamələr kağız üzərində qalır. Bu, ədalətsizlikdir, ikili standartlardır. Ancaq yenə də demək istəyirəm, biz real vəziyyəti çox düzgün təhlil edərək bir daha qərara gəlirik ki, yalnız iqtisadi gücümüzə, hərbi gücümüzə, Azərbaycan xalqının istedadına arxalanmalıyıq.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur, nə Azərbaycan xalqı, nə də Azərbaycan dövləti heç bir başqa varianta razı ola bilməz. Biz ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Baxmayaraq ki, qeyd etdiyim kimi, bugünkü Ermənistan ərazisi bizim tarixi torpağımızdır. Ancaq biz öz torpağımızı heç kimə verməyəcəyik və heç vaxt bu vəziyyətlə barışmayacağıq.

Biz münaqişəni tezliklə, ədalətli və öz xeyrimizə həll etmək üçün daha da güclü olmalıyıq. Biz güclü dövlət qururuq. Bu gün Azərbaycan dünya miqyasında qüdrətli dövlət kimi tanınır. Baxın, bütün bölgələrdə, bütün regionlarda qanlı toqquşmalar, münaqişələr, vətəndaş müharibələri, siyasi və iqtisadi böhranlar hökm sürür. Azərbaycan isə inkişaf, sabitlik adasıdır. Düşünülmüş siyasət, xalqla iqtidar arasındakı birlik və müstəqil siyasətimiz bizim bütün uğurlarımızın əsas şərtidir. Biz güclü iqtisadiyyat qurmuşuq və bu gün iqtisadi inkişaf baxımından heç bir ölkə Azərbaycan ilə müqayisə oluna bilməz. Son on il ərzində bizdə olan iqtisadi inkişaf templəri heç bir başqa ölkədə heç vaxt olmamışdır. Bu gün Azərbaycan uğurlu iqtisadi inkişafını davam etdirir. Bu, bizə imkan verir ki, müstəqil siyasət aparaq. Əgər bizim iqtisadiyyatımız başqa ölkələrdən, yaxud da ki, beynəlxalq maliyyə institutlarından asılı olsaydı, əlbəttə, başqa ölkələrin iradəsini bizə diktə edə bilərdilər. Bu gün heç bir kənar qüvvə bizə öz iradəsini diktə edə bilməz. Əgər belə cəhdlər olursa, biz bu cəhdlərin qarşısını qətiyyətlə alırıq. Azərbaycan dövləti öz yolu ilə gedir. Bu yol müstəqillik və inkişaf yoludur. Azərbaycan xalqı öz taleyinin sahibidir. Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz, bizi inkişaf yolundan döndərə bilməz. Ona görə ki, iqtisadi inkişaf bizim uğurlu inkişafımızın, müstəqilliyimizin əsas təminatçısıdır.

Təmas xəttindəki vəziyyətlə hərbçilər yaxından tanışdırlar. Azərbaycan ictimaiyyəti də bunu bilir. Deyə bilərəm ki, son bir il ərzində Azərbaycan Ordusu təmas xəttində tam üstünlüyü əldə edibdir. Keçən ilin yayında Ermənistan təmas xəttində təxribat törətməyə cəhd göstərmişdi. Ancaq bu təxribatın qarşısı layiqincə alındı, düşmən yerinə oturduldu. Bizdə olan məlumata görə, keçən ilin iyul-avqust aylarından bu günə qədər yüzdən çox işğalçı məhv edilib. Bəzi hallarda bizə irad tutulur ki, təmas xəttində gərginlik yaranır, Ermənistan tərəfində çoxsaylı itkilər var. Bizim isə buna cavabımız çox sadədir. Rədd olsunlar bizim torpaqlarımızdan! O zaman münaqişə öz həllini tapar, sülh yarana bilər.

Ermənistan tərəfinə bunu bir neçə dəfə demişəm, bir daha demək istəyirəm, - əgər ölmək istəmirsinizsə, bizim torpaqlarımızdan rədd olun. Bizdə olan məlumata görə, düşmən indi təlaş içindədir, isterikaya qapılıb. Təmas xəttindəki məğlubiyyətindən sonra bizdən qisas almağa çalışıb, ancaq o cəhdlər də uğursuz olub. Nə qədər çox təxribat törədəcəklərsə, o qədər də çox itki verəcəklər. Bir daha demək istəyirəm ki, bu gün Azərbaycan Ordusu öz üstünlüyünü göstərir. Bizdə olan vətənpərvərlik ruhu, döyüş qabiliyyəti, texniki imkanlar, əlbəttə ki, üstünlüyümüzü şərtləndirir. Azərbaycan Ordusunun arsenalında mövcud olan texnika, silah-sursat Dağlıq Qarabağda və Ermənistanda istənilən hədəfi yüksək dəqiqliklə məhv edə bilər.

Əziz hərbçilər, biz 24 ilə yaxındır ki, müstəqillik şəraitində yaşayırıq. Müstəqillik bizim ən böyük sərvətimiz, ən böyük dəyərimizdir. Əsrlər boyu Azərbaycan xalqı, bizim əcdadlarımız müstəqillik eşqi ilə yaşamışlar. Ancaq bu xoşbəxtlik bizə nəsib olub.

Bu gün müstəqil Azərbaycan dünya miqyasında nümunəvi ölkə kimi tanınır. Azərbaycanda xalqla iqtidar arasındakı birlik ən yüksək səviyyədədir. Azərbaycanda bütün azadlıqlar təmin edilir, demokratik inkişaf sürətlə gedir, iqtisadi potensial, hərbi qüdrətimiz güclənir. Azərbaycanda gözəl ictimai ab-hava var. Bu, doğrudan da, nümunəvi bir ölkədir və bütün bu uğurların başlıca səbəbi müstəqillikdir.

Bizim əvvəllər də enerji resurslarımız var idi. XIX əsrin sonları - XX əsrin əvvəllərində Azərbaycan nefti dünya neftinin 50 faizini təşkil edirdi. Ancaq o sərvət, o nəticələr harada idi?! Çünki o resurslar bizə məxsus deyildi. Ancaq müstəqillik illərində biz böyük nəticələrə nail ola bilmişik.

Bizim xalqımız azaddır, müstəqildir. Biz öz həyatımızı özümüz qururuq, heç kimdən asılı deyilik. Bizim müstəqilliyimiz sadəcə olaraq dövlət atributları ilə ölçülmür. Biz müstəqil siyasət aparırıq, bütün beynəlxalq tribunalarda sözümüzü deyirik, bütün beynəlxalq məsələlərlə bağlı qətiyyətli mövqeyimizi ifadə edirik. Bəzi hallarda bu, bizi istəməyən xarici qüvvələri, dairələri qıcıqlandırır. Ancaq mənim üçün bunun heç bir əhəmiyyəti yoxdur. Əsas məsələ Azərbaycan xalqının təhlükəsizliyi, rifahı, Azərbaycan dövlətinin inkişafı və güclənməsidir.

Bu gün müstəqil Azərbaycan uğurla, inamla inkişaf edir. Biz böyük uğurlara imza atmışıq. Ancaq bizim əsas vəzifəmiz ərazi bütövlüyümüzü bərpa etməkdən ibarətdir. Mən əminəm ki, güclənən Azərbaycan buna da nail olacaq və bizim milli bayrağımız Şuşada, Xankəndidə qaldırılacaqdır. Hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü öz işi ilə yaxınlaşdırmalıdır.

Əziz hərbçilər, sizi qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Eşq olsun Azərbaycan Ordusuna!
Yaşasın Azərbaycan!

## Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının və mülki işçilərinin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin

# Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, xidməti vəzifələrini və hərbi hissənin qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə, hərbi təhsil sahəsində xidmətlərinə görə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıda adları göstərilən hərbi qulluqçuları və mülki işçiləri təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə:**
Tahirov Ramiz Firudin oğlu - general-leytenant
Cəbrayılov Xəqani Sərdar oğlu - general-mayor
Əliyev Rasim Məmmədəli oğlu - general-mayor
Mirzəyev Hikmət İzzət oğlu - general-mayor
Əlibəyov Elxan Əlibəy oğlu - polkovnik
Əliyev Pərviz Abid oğlu - polkovnik-leytenant

**"Vətən uğrunda" medalı ilə:**
Bayramov Namiq Süleyman oğlu - polkovnik
Eminov Məmməd Şəmil oğlu - polkovnik
Qurbanov Abdulla Novruz oğlu - polkovnik
Rzayev Mübariz Mehman oğlu - polkovnik
Məmmədov Vüqar Seyidbala oğlu - polkovnik

**"İgidliyə görə" medalı ilə:**
Dadaşov Haqverdi Xudaverdi oğlu - polkovnik-leytenant
Ələkbərov Pərviz Ağasalam oğlu - polkovnik-leytenant
Hafizov Ervin Hacımurad oğlu - kapitan
Seyidov Mirxəyal Mirsadıq oğlu - baş leytenant
Həsənov Ülfət Viktor oğlu - gizir
Teymurov Pəncəli Nurməmməd oğlu - gizir
Umarov Sabir Kamil oğlu - gizir

**"Tərəqqi" medalı ilə:**
Namazov Fəxrəddin Hümbət oğlu
Rəfiyev Hüseyn Səfər oğlu
Seyranova Rimma İsrayıl qızı

**"Hərbi xidmətlərə görə" medalı ilə:**
Həsənov Hikmət Hüseyn oğlu - general-mayor
Bağırov Gəray Abbas oğlu - polkovnik
Əhmədov Qurban Möylə oğlu - polkovnik
Əliyev Elsevər Sərhəd oğlu - polkovnik
Əliyev Faiq Xanlar oğlu - polkovnik
Əmirov Rüfət Məzahir oğlu - polkovnik
Həsənov Elşad Humay oğlu - polkovnik
Quliyev Azər Xudam oğlu - polkovnik
Qurbanov Məlikməmməd Oruc oğlu - polkovnik
Xəlilov Vasif Tofiq oğlu - polkovnik-leytenant
Mehrəliyev Sadiq Nadir oğlu - polkovnik-leytenant
Məmişov Natiq Gülağa oğlu - polkovnik-leytenant
Şirinov Rasət Suliddin oğlu - polkovnik-leytenant
Quliyev Samir Teymur oğlu - mayor
Həmidov Hikmət Xeyrəddin oğlu - baş gizir
Əliyev Eldar Rafiq oğlu - gizir
Əliyev Pərvin Səlahəddin oğlu - gizir (ölümündən sonra)
Əhmədov Elçin Rasim oğlu - kiçik gizir (ölümündən sonra)
Hüseynov Rahil Əfsər oğlu - kiçik gizir (ölümündən sonra)
Muradov İlqar Yusif oğlu - kiçik gizir (ölümündən sonra).

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 iyun 2015-ci il.

## 26 İyun - Silahlı Qüvvələr Günü münasibəti ilə Silahlı Qüvvələrin şəxsi heyətinə

## Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Cənab zabitlər, gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər və matroslar!

Sizi 26 İyun - Silahlı Qüvvələr Günü munasibəti ilə təbrik edir, Vətən naminə müqəddəs və şərəfli xidmətinizdə hər birinizə uğurlar arzulayıram.

Azərbaycan Demokratik Respublikası Əlahiddə Azərbaycan Korpusunun varisi olan Silahlı Qüvvələrimiz 97-ci ildönümünü böyük ruh yüksəkliyi, döyüş və mənəvi-psixoloji hazırlıqda qazandığı nailiyyətlərlə qarşılayır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin digər sahələrlə yanaşı, ordu quruculuğu sahəsində apardığı siyasət də möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir. Ali Baş Komandanımızın qeyd etdiyi kimi, Azərbaycan Ordusunun peşəkarlığı, döyüş qabiliyyəti artır, Azərbaycan əsgər, gizir və zabitləri Vətənə ləyaqətlə xidmət edirlər, öz Vətəninə sadiqdirlər. Bizim bütün hərbi hissələrimizdə, xüsusilə də cəbhədə yerləşən hərbi hissələrdə ruh yüksəkliyi var və Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir. Azərbaycan Ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir. Son vaxtlar əldə etdiyimiz silah, texnika deməyə əsas verir ki, qarşıya qoyulan vəzifələri icra edə bilərik.

Günün müxtəlif vaxtlarında, istənilən iqlim şəraitində irimiqyaslı taktiki təlimlərdə şəxsi heyət öz peşəkarlığını, yüksək döyüş qabiliyyətini dəfələrlə nümayiş etdirir. Mütəmadi olaraq Ermənistan silahlı bölmələri tərəfindən atəşkəs rejimi pozulsa da, əsgər və zabitlərimizin ayıq-sayıqlığı nəticəsində düşmən susdurulur, kəşfiyyat-təxribat qruplarının qarşısı vaxtında alınır. Azərbaycan əsgəri quruda, havada və dənizdə Vətən qarşısında vəzifə borcunu şərəf və vicdanla yerinə yetirir, ulu öndərimizin ideyalarına sadiqdir, Vətənin hər bir çağırışına hər an hazırdır. Bu gün xalq ilə ordunun sağlam və monolit birliyi yaranıb. Xalq öz ordusuna inanır, onun gücünə güvənir. Şəhid ailələri, müharibə veteran və əlilləri, eləcə də hər bir hərbi qulluqçu ölkə rəhbərliyinin daim diqqət və qayğısı ilə əhatə olunub. İnanıram ki, bu sizi sevindirməklə yanaşı, məsuliyyətinizi daha da artırır.

Əmin olduğumu bildirirəm ki, Silahlı Qüvvələrimizin şəxsi heyəti bundan sonra da xalqımızın və dövlətimizin etimadını şərəflə doğruldacaq, hərbi intizamını artıracaq, döyüş və mənəvi-psixoloji hazırlığını yüksəldəcək, bundan sonra da qazandığı uğur və nailiyyətlərlə xalqımızı sevindirəcək, tezliklə işğal altında olan əzəli və əbədi torpaqlarımızın xilas edilməsinə nail olacaqdır.

Hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə müvəffəqiyyətlər arzulayıram.

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

# Qaradağ rayonunda Hərbi Dəniz Qüvvələrinin yeni bazasının və "N" hərbi hissəsinin açılışı olub

## Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev açılışda iştirak edib





***İyunun 25-də Bakının Qaradağ rayonunun Puta qəsəbəsində Hərbi Dəniz Qüvvələrinin yeni bazasının və "N" hərbi hissəsinin açılışı olub.***

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyev açılışda iştirak edib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin abidəsinin önünə gül dəstəsi qoydu.

Müdafiə naziri Zakir Həsənov Ali Baş Komandan, Prezident İlham Əliyevə görülən işlər barədə məlumat verdi. Bildirildi ki, Xəzər dənizi hövzəsində ən böyük və müasir hərbi obyekt olan Hərbi Dəniz Qüvvələrinin yeni bazasının və "N" hərbi hissəsinin inzibati, xidməti binalarının və qurğuların inşasına 2010-cu ilin oktyabrından başlanılıb. Burada şəxsi heyətin xidməti vəzifələrini layiqincə yerinə yetirməsi və onların ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün geniş işlər görülüb.





Azərbaycan Prezidenti rəmzi açılışı bildirən lenti kəsdi.

Hərbi Dəniz Qüvvələrinin qərargahının binasında ulu öndər Heydər Əliyevin ordu quruculuğuna diqqətini əks etdirən fotolardan ibarət stend yaradılıb. Qərargah binasında növbətçi, tədris, vətəndaşların qəbulu, qonaq otaqları, konfrans zalı, komplektləşdirmə, dəniz müşahidə və digər şöbələr, həmçinin, feldyeger poçt-rabitə stansiyası, bufet yaradılıb.

Prezident İlham Əliyevə Hərbi Dəniz Qüvvələrinin komanda məntəqəsi barədə məlumat verildi. Bu məntəqə Hərbi Dəniz Qüvvələrinin idarə olunmasını həyata keçirir, Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda suüstü şəraitə nəzarət etməyə hərtərəfli imkan verir. Məntəqədə suüstü şərait haqqında operativ məlumatlar Hərbi Dəniz Qüvvələrinə məxsus sahil və ada radio-texniki postlarda yerləşən radiolokasiya stansiyaları vasitəsilə alınır. Aşkar edilən bütün hədəflər real vaxt rejimində monitorlarda əks olunur. Xəzər dənizinin Azərbaycana məxsus sektorunda suüstü şəraitlə bağlı Dövlət Sərhəd Xidmətinin sahil mühafizəsindən və Dövlət Dəniz Administrasiyasından alınan məlumatlar da Hərbi Dəniz Qüvvələrinin komanda məntəqəsində toplanır, təhlil olunur və müvafiq qərar qəbul edilir. Burada ən müasir texnoloji yeniliklərə əsaslanan avadanlığın quraşdırılması məntəqənin işini yüksək səviyyədə qurmağa imkan verir.

Sonra dövlətimizin başçısı hərbçilərlə görüşdü.

Hərbi Dəniz Qüvvələrinin qərargah rəisi Şahin Məmmədov dövlətimizin başçısına raport verdi.

Prezident İlham Əliyev əsgərləri salamladı.

Azərbaycan Respublikasının Dövlət himni səsləndi.

Prezident, Ali Baş Komandan İlham Əliyev mərasimdə nitq söylədi.

***(Prezident İlham Əliyevin nitqi 1-ci səhifədə dərc olunub).***

Sonra xatirə şəkli çəkdirildi.

Daha sonra dövlətimizin başçısı "N" hərbi hissəsinin əsgər yataqxanasında oldu.

Hərbi hissənin şəxsi heyəti üçün yataqxanalar inşa olunub. Üçmərtəbəli binalarda əsgər və zabitlərin qalması, onların istirahəti, asudə vaxtlarının səmərəli təşkil edilməsi üçün bütün zəruri şərait yaradılıb. Əsgər yataqxanalarında, həmçinin, lazımi hərbi-texniki vəsaitlərlə təchiz edilmiş sinif otaqları var. Buradakı şərait bir daha təsdiq edir ki, Azərbaycan dövlətinin iqtisadi qüdrəti artdıqca hərbi sahənin daha da müasirləşdirilməsi, əsgər və zabitlərin xidmət şəraitlərinin daha da yaxşılaşdırılması, onların hərbin sirlərinə daha dərindən yiyələnməsi istiqamətində mühüm layihələr yerinə yetirilir.

Ali Baş Komandana "Bəbir-2" zirehli nəqliyyat vasitəsi barədə də məlumat verildi. Avtomatik sürətlər qutusu, hidravlik sükan mexanizmi ilə təchiz edilən bu zirehli maşın Azərbaycan istehsalıdır. İstənilən döyüş tapşırığını yerinə yetirə bilən bu zirehli nəqliyyat vasitəsi döyüş zamanı təbii və süni maneələri asanlıqla dəf edə bilir.

Dövlətimizin başçısı Hərbi Dəniz Qüvvələrinin poliklinikasındakı şəraitə baxdı. Poliklinika binasının foyesində ulu öndər Heydər Əliyevin və Ali Baş Komandan İlham Əliyevin əsgər və zabitlərlə görüşlərini əks etdirən fotolar sərgilənir. Burada əsgər və zabitlərin həm müalicəsini, həm də müayinəsini həyata keçirmək mümkündür. Poliklinikada 11 funksional bölmə və 4 funksional kabinet yaradılıb. Buradakı oftalmoloq, fizioterapiya, nevropatoloq, LOR, stomatoloq, cərrah, terapevt, ultrasəslə müayinə, dermatoloq və rentgen otaqları tibbin müasir texniki avadanlıqları ilə təchiz edilib. Poliklinikada, həmçinin, biokimyəvi, kimyəvi və seroloji müayinələrin aparılacağı laboratoriya, prosedur otaqları, aptek, yeməkxana yaradılıb. Bu tibb müəssisəsində 32 çarpayılıq 7 palata da var. Palatalardakı şərait hərbçilərin müalicə proseslərini yüksək səviyyədə aparmağa geniş imkan verir.



Qaradağ rayonunun Puta qəsəbəsində ayrılan 254,5 hektar torpaq sahəsində Hərbi Dəniz Qüvvələri və "N" hərbi hissəsi üçün qərargah binaları, 2 xidməti yaşayış binası, 10 sahilyanı matros yataqxanası, əsgər yeməkxanaları, nəzarət-buraxılış məntəqələri, qazanxana-camaşırxana-hamam kompleksi, gəmilərin yan alması üçün körpülər, anqar tipli avtomobil dayanacaqları yaradılıb.

Gəmilərin yanalma körpüsünə gələn Prezident İlham Əliyev Hərbi Dəniz Qüvvələrinin idarəetmə gəmisinə baxdı. Gəmidə şəxsi heyətin yaşaması, istirahət etməsi və xidmət aparması üçün zəruri şərait yaradılıb. Gəmidəki qurğular şəxsi heyətin qarşısına qoyulmuş döyüş və əməliyyat tapşırıqlarının yerinə yetirilməsində yüksək nəticələrə nail olmaq imkanı yaradır.

Dövlətimizin başçısına gəminin baş komanda məntəqəsi haqqında məlumat verildi.

Bildirildi ki, baş komanda məntəqəsi gəminin idarə edilməsini, dənizdə üzmə zamanı naviqasiya və məhdud görünmə şəraitində təhlükəsizliyini təmin edir. Bütün silah və texniki vasitələrin idarə edilməsi, döyüş və atəş tapşırıqlarının yerinə yetirilməsi də buradan həyata keçirilir. Gəminin hərəkətə gətirilməsi və istiqamətinin tənzimlənməsi üçün baş mühərriklərin və sükanın idarə edilməsi məqsədilə burada ən son texnoloji avadanlıq quraşdırılıb. Bütün cihazların təyin etdiyi göstəricilər elektron xəritədə əks olunur.

Hərbi hissədə tikintinin ikinci mərhələsində gəmilərə və avtomobillərə texniki qulluq və təmir sahələri, əlavə yanalma körpüləri, anbarlar sahəsi, zabitlər evi, uşaq bağçası və məktəb binaları, klub və idman şəhərciyinin inşası nəzərdə tutulub.





Sonra Ali Baş Komandan Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsinin qərargahı və matros yataqxanasında yaradılan şəraitlə tanış oldu. Bu bina hərbi hissə qərargahının fəaliyyəti və matrosların yaşaması üçün nəzərdə tutulub. Burada hər biri 8 nəfərlik olmaqla 4 otaq var. Otaqlarda hərbçilərin yatması, istirahət etməsi və asudə vaxtlarını səmərəli keçirməsi üçün bütün imkanlar yaradılıb. Məişət xidməti və sinif otaqları, kompüter zalı əsgərlərin ixtiyarına veriləcək.

Prezident İlham Əliyevə Hərbi Dəniz Qüvvələrinin şəxsi heyəti üçün inşa edilən yaşayış binaları barədə də məlumat verildi. Ərazidə beşmərtəbəli iki bina inşa olunub. Beş blokdan ibarət binaların hər birində üçotaqlı 50 mənzil var. Bütün zəruri avadanlıqla təchiz olunan mənzillərin hər birinin ümumi sahəsi 110 kvadratmetrdən artıqdır. Binaların ikisi də mərkəzləşdirilmiş havalandırma sistemi ilə təmin olunub. Ətrafda geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb, istirahət guşələri yaradılıb.

Daha sonra dövlətimizin başçısı "N" hərbi hissəsinin qazanxana-camaşırxana-hamam kompleksindəki şəraitlə tanış oldu. Bu kompleks də müasir səviyyədə yaradılıb.

"N" hərbi hissəsinin yeməkxanası ilə tanışlıq zamanı Ali Baş Komandana səhra şəraitində yemək hazırlamaq məqsədilə soba, şəxsi heyət üçün səhra şəraitində suyun qaynadılması, yeməklərin və çörəyin hazırlanması, hazır yeməklərin daşınması üçün xüsusi qablar və soyuducular, həmçinin son dövrlərdə əsgərlərin yemək rasionuna edilən əlavələr barədə də məlumat verildi. Bildirildi ki, yeməkxanada eyni vaxtda üç min nəfər qidalana bilər.

Prezident İlham Əliyev çörək sexinə də baxdı. Məlumat verildi ki, bu sex hərbi hissənin şəxsi heyətinin çörəyə olan tələbatını tam ödəməyə imkan verir.

**AZƏRTAC**

## Müdafiə naziri general-polkovnik Zakir HƏSƏNOV:

# “Silahlı Qüvvələrimiz qarşıya qoyulan bütün tapşırıqları uğurla yerinə yetirməyə qadirdir”

(Əvvəli 1-ci səhifədə)

İlk növbədə, qeyd etmək istərdim ki, Ali Baş Komandanın tapşırığı ilə 2015-ci il Silahlı Qüvvələrdə döyüş hazırlığı ili elan olunub. Burada planlı şəkildə, mərhələlərlə mühüm məsələlər həyata keçirilir. Həm struktur, həm kadrlar baxımından mühüm işlər görülür. Qarşımıza qoyulan məqsəd isə hər bir hərbi qulluqçunun, tutduğu vəzifədən asılı olmayaraq, öz yerində tapşırıqları yüksək səviyyədə yerinə yetirməsinə qadir olması və vəzifələrini döyüş şəraitinə uyğun bacarmasıdır.

İstənilən səviyyələrdəki qərargahlarda, idarəetmə məntəqələrində şəxsi heyətin biliyi, bacarığı, təcrübəsi və vərdişləri təkmilləşdirilir. Döyüş hazırlığının çöl şəraitində, o cümlədən müəyyən hissəsinin gecə vaxtı, özü də birbaşa döyüş şəraitinə uyğun keçirilməsinə üstünlük verilir. Bununla əlaqədar döyüş hazırlığı planına uyğun olaraq, Silahlı Qüvvələrin bütün birlik və birləşmələrində, Naxçıvan Muxtar Respublikasında yerləşən Əlahiddə Ümumqoşun Ordusunda, o cümlədən Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələrində, tank, artilleriya, kəşfiyyat, mühəndis-istehkam hərbi hissələrində, Xüsusi Təyinatlı Qüvvələrdə gündüz və gecə şəraitində müxtəlif səviyyəli irimiqyaslı təlimlər keçirilir.

Xüsusi qeyd etmək istərdim ki, qısa müddət ərzində tam təmin olunmuş yeni poliqonlar inşa edilib və şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi üçün müvafiq şərait yaradılıb. Burada əsas məqsəd ordunu gələcək döyüşlərə hazırlamaq, zabit və əsgərlərin qarşısında duran vəzifələrin yüksək səviyyədə icrasını təmin etməkdir.

Dövlətimizin başçısının tapşırığına əsasən, Müdafiə Nazirliyinin döyüş hazırlığı planına uyğun olaraq keçirilən təlimlərə ehtiyatdan çağırılan hərbi vəzifəlilər də cəlb edilib. Onlar bu təlimlərdə iştirak etməklə döyüş qabiliyyətlərini, hərbi ixtisaslarını və təcrübələrini təkmilləşdirmək, müasir silah və hərbi texnikanın nümunələri ilə yaxından tanış olmaq, düzgün istifadə və istismarı qaydalarını bilmək imkanı əldə ediblər. Eyni zamanda, Silahlı Qüvvələrimizin şəxsi heyəti beynəlxalq səviyyədə keçirilən müxtəlif təlimlərdə iştirak edir.

Keçən ilin avqustunda ilk dəfə Naxçıvanda, bu ilin aprelində Tbilisidə, mayında isə Ankarada Azərbaycan, Türkiyə və Gürcüstan arasında əməkdaşlığın möhkəmləndirilməsi və regional təhlükəsizlik məsələlərinin müzakirə edilməsi məqsədilə müdafiə nazirlərinin üçtərəfli formatda görüşləri keçirilib. Bu görüşlərin mühüm nəticəsi ondan ibarət olub ki, təhsil və tibb sahələrində əməkdaşlığın genişləndirilməsi, təcrübə mübadiləsi və qarşılıqlı maraq doğuran digər məsələlərin əlaqələndirilməsi məqsədilə Üçtərəfli Koordinasiya Qrupu yaradılıb.

Hərbi sahədə əməkdaşlığa dair imzalanmış sazişə əsasən, ilk dəfə keçən ilin sentyabr-oktyabr aylarında Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin ölkəmizdə "TurAz Qartalı 2014" və cari ilin martında Türkiyədə keçirilən "TurAz Şahini 2015" təlimlərini xatırlatmaq istərdim. İlk dəfə olaraq Azərbaycan şahinləri ikiyerli "F-16" tipli döyüş-təlim qırıcı təyyarələrində uçuşlar yerinə yetiriblər.

İkitərəfli əməkdaşlıq çərçivəsində Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin Quru Qoşunlarının, Hərbi Hava Qüvvələrinin, Raket və Artilleriya Qoşunlarının bölmələri cəlb olunmaqla əvvəl Qars vilayətində, sonra isə may ayında Bakıda və Naxçıvanda döyüş atışlı birgə taktiki təlimləri, iyunda isə Azərbaycan, Türkiyə və Gürcüstanın Xüsusi Təyinatlı qüvvələrinin "Qafqaz Qartalı" təlimi keçirilib.

Bu əməkdaşlıq çərçivəsində ixrac neft və qaz boru kəmərlərinin təhlükəsizliyi, enerji və nəqliyyat infrastrukturlarının mühafizəsinin təşkili və gücləndirilməsi məqsədilə hər il birgə kompüter dəstəkli komanda-qərargah təlimi ("Eternity") keçirilir.

Təlimlər, yoxlamalar və digər tədbirlər ordumuzun müasir döyüşün ən mürəkkəb tapşırıqlarını belə müvəffəqiyyətlə yerinə yetirməyə hazır olduğunu, onun döyüş qabiliyyətinin və peşəkarlığının, yeni silah sistemlərindən və döyüş texnikasından ustalıqla istifadə etmək bacarığının əhəmiyyətli dərəcədə artdığını göstərdi.

Ötən ilin yay aylarında cəbhə xəttində hadisələrin gərginləşməsi, noyabr ayında cəbhənin Ağdam rayonu istiqamətində Ermənistanın Hərbi Hava Qüvvələrinə məxsus Mi-24 tipli döyüş helikopterinin məhv edilməsi, döyüşlərdə canlı qüvvə sarıdan xeyli sayda itki verən Ermənistan Silahlı Qüvvələrinin təxribat törətmək planlarının tam alt-üst edilməsi bir daha ordumuzun kifayət qədər gücə malik olduğunu sübuta yetirdi.

Ermənistan tərəfi itkilərini gizlətməyə çalışır. Amma biz işğal olunmuş ərazilərdəki vəziyyətdən tam məlumatlıyıq. Ermənistanda və işğal olunmuş ərazilərdə vəziyyət çox acınacaqlıdır. Bunun günahkarı kriminal Ermənistan rejimidir, onun başçılarıdır, Ermənistanda hökm sürən rejimdir. Düşmən ordusunda əsgər çatışmazlığı elə bir həddə çatıb ki, erməni tərəfi postlarda keşik çəkməyə mülki şəxsləri yerləşdirir. Bundan əlavə, hərbi əməliyyatlara müxtəlif ölkələrdən, o cümlədən Yaxın Şərq regionundan - Livandan və Suriyadan muzdluları cəlb edir.

Şübhəsiz ki, Azərbaycanın müasir tələblərə cavab verə biləcək güclü ordusunun formalaşdırılmasında, yüksək döyüş hazırlığının təmin edilməsində hərbi təhsil sisteminin müstəsna əhəmiyyəti vardır. Ali Baş Komandanın tapşırığına əsasən, döyüş hazırlığının daha da artırılması məqsədilə hərbi təhsil sisteminə ciddi diqqət yetirilir. Bu sistem müxtəlif pilləli ardıcıl təhsil proqramlarını həyata keçirən xüsusi təyinatlı təhsil müəssisələri şəbəkəsindən və təhsili idarəetmə orqanlarından ibarətdir. Bundan əlavə, zabit-gizir heyətinin peşəkar hazırlığının təkmilləşdirilməsi üçün biz bu gün xüsusi proqram tərtib etmişik.

Silahlı Qüvvələrdə hərb elminin inkişafı, eləcə də elmi və elmi-pedaqoji kadr hazırlığı məqsədilə 2014-cü ildən Hərbi Akademiyanın Adyunkturası fəaliyyətə başlayıb. Artıq burada qiyabi və əyani təhsil üzrə qəbul həyata keçirilir, 12 zabit fəlsəfə doktoru, 4 nəfər isə Adyunkturaya elmlər doktoru hazırlığı proqramı üzrə qəbul olunub.

Dost və digər dövlətlərin hərbi təhsil sistemi ilə tanışlıq, təcrübə mübadiləsi məqsədilə Müdafiə Nazirliyinin yüksək səviyyəli nümayəndə heyətlərinin Türkiyə, Rusiya, Belorus və digər ölkələrə səfərləri olub. Plana uyğun olaraq hərbi təhsil müəssisələrinin professor və müəllim heyəti Türkiyənin, Litvanın, İordaniyanın, Pakistanın, o cümlədən NATO dövlətlərinin hərbi-təhsil müəssisələrinin nümayəndələri ilə qarşılıqlı təcrübə mübadiləsi aparır.

Digər bir vacib məsələ - Silahlı Qüvvələrdə müasir dövrün tələblərinə uyğun aparılan kadr siyasətidir. Daha layiqli kadrların aşkar edilməsi, düzgün seçilməsi, yerləşdirilməsi, vəzifə üzrə irəli çəkilməsi və təhsil almağa göndərilməsi, növbəti hərbi rütbələrin vaxtında verilməsi və mükafatlandırılması məqsədilə kadrların obyektiv qiymətləndirilməsi yeni attestasiya qaydalarının tətbiqi ilə həyata keçirilir.

Zabitlərin bilik və bacarıqlarına uyğun istifadə olunması, dəyişən xidmət şəraitinə uyğunlaşma vərdişlərinin inkişaf etdirilməsi, xidmətdə bərabər şəraitin yaradılması məqsədilə Silahlı Qüvvələrdə onların xidməti yerlərinin planlı şəkildə yerdəyişməsi (rotasiyası) yeni təlimat əsasında aparılır.

Hazırda isə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin kadr siyasəti konsepsiyası"nın layihəsi üzərində işlər davam etdirilir.

Hərbi xidmətin nüfuzunun artırılması və maddi stimullaşdırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi hərbi quruculuqda aparılan irimiqyaslı islahatlar çərçivəsində təqdirəlayiq işlərdən hesab olunur. Müdafiə Nazirliyi ölkənin əsas güc strukturlarından biri kimi bu sahədə bir neçə yeni qanunvericilik aktının layihələrini hazırlayıb, aidiyyəti dövlət qurumları ilə razılaşdırıb və onları müvafiq instansiyaya təqdim edib.

Keçən ilin dekabrında Silahlı Qüvvələrin Sıra Nizamnaməsi təsdiq edilib. Bu nizamnamə bir sıra yeniliklərlə yanaşı, həm də mövcud qaydaların təkmilləşdirilməsini özündə ehtiva edir. Şübhəsiz ki, bu, birinci növbədə orduda hərbi intizamın möhkəmləndirilməsinə istiqamətlənib.

Hərbi sahədə mövcud qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilir. Silahlı Qüvvələrin İntizam, Qarnizon və Qarovul xidmətləri, Daxili Xidmət nizamnamələrinin təkmilləşdirilməsi məqsədilə onların yeni layihələri hazırlanıb və razılaşdırılması üçün aidiyyəti dövlət orqanlarına göndərilib. Artıq razılaşdırma prosesi başa çatmaq üzrədir.

Müasir standartlara keçidlə əlaqədar hərbi birləşmələrdə bəzi vəzifələrin səlahiyyətlərinə dəyişikliklər edilib, yeni yaradılan bir sıra vəzifələr və onların səlahiyyətləri artıq Daxili Xidmət Nizamnaməsinin yeni layihəsində öz əksini tapıb.

Biz hərbi qanunvericilik aktlarını təkmilləşdirərkən, şübhəsiz, dünya təcrübəsini nəzərdən keçiririk. Bu zaman hansısa konkret bir ölkənin təcrübəsinə deyil, Azərbaycanın milli mənafelərinə üstünlük verir, inkişaf etmiş dövlətlərin təcrübəsindən yararlanırıq.

Hərbi qulluqçuların hüquq və vəzifələrini müəyyən edən, əsas normativ hüquqi akt olan "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanununun yeni layihəsi hazırlanaraq, hərbi qulluqçuların, onların ailə üzvlərinin, ehtiyata və ya istefaya buraxılmış şəxslərin sosial və hüquqi təminatının daha da yaxşılaşdırılması məqsədilə sənədə bir sıra yeni müddəalar daxil edilib.

Silahlı Qüvvələrdən ehtiyata və ya istefaya buraxılmış şəxslərə xidmət dövründə istifadə etmədikləri növbəti məzuniyyətə görə kompensasiyanın ödənilməsi məqsədilə Nazirlər Kabinetinin müvafiq qərarı qəbul olunub. Bu qərara əsasən, Müdafiə Nazirliyi tərəfindən kompensasiyanın ödənilməsi qaydaları təsdiq edilib. Proses mərhələli şəkildə və vəsait ayrıldıqca həyata keçiriləcək.

Silahlı Qüvvələrdə aparılan islahatlar çərçivəsində hərbi hissə komandirlərinin hərbi nizamnamələr və normativ hüquqi aktlarla müəyyən olunan hüquqlarının icrasına imkan verən sənədlərin layihələri hazırlanıb.

Azərbaycan Respublikasının Hərbi Doktrinasının, Silahlı Qüvvələrin 10 illik İnkişaf Strategiyasının yeni layihələri işlənib, Milli Təhlükəsizlik Konsepsiyasına daxil ediləcək ölkənin müdafiə qabiliyyətinin inkişafına dair



təkliflər hazırlanıb.

Son illər ərzində Azərbaycanın hərbi xərcləri sürətlə inkişaf edib və qısa zamanda hərbi büdcəmiz 20 dəfədən çox artıb. Hazırda Ermənistanın dövlət büdcəsinin bütün xərcləri Azərbaycanın 2015-ci il üçün hərbi büdcəsindən təxminən 2 milyard ABŞ dolları azdır. Ermənistanın hərbi xərcləri isə, ümumiyyətlə, Azərbaycanın hərbi xərcləri ilə müqayisədə olduqca cüzi görünür.

Ali Baş Komandanımız İlham Əliyevin "düşmənin ayaqlarının altında torpaq od tutub yanmalıdır" sözləri qarşımızda mühüm vəzifələr qoyur. Məhz buna görə də Silahlı Qüvvələrimizin döyüş arsenalının müasir tələblər əsasında yenilənərək gücləndirilməsi ümumi fəaliyyətimizin başlıca istiqamətlərindən birini təşkil edir.

Silahlı Qüvvələrimizin imkan və qabiliyyətlərinin artırılması, qoşunların hərtərəfli və fasiləsiz maddi-texniki təminatının keyfiyyətinin yüksəldilməsi məqsədilə yeni silahların, texnikanın, hərbi əmlakın alınması, silahlanmaya qəbul edilməsi istiqamətində işlər aparılır. Biz müəyyən olunmuş inkişaf proqramına əsasən, hərbi təyinatlı məmulatların təmirini, modernləşməsini və təkrar emalını həyata keçiririk. Qoşunların silah və döyüş sursatı ilə təminatı, uzun müddət istismarda olan silahların və cihazların yeniləri ilə əvəzlənməsi, onların istifadəsinin düzgün təşkil olunması məsələlərinə xüsusi diqqət yetirilir.

Qoşunların döyüş qabiliyyətini yüksək səviyyədə saxlamaq məqsədilə hissə və bölmələr müasir 152 mm "Msta-S", 120 mm "Vena" özüyeriyən artilleriya qurğuları, 122 mm "Sakarya" reaktiv yaylım atəşi sistemləri, 120 mm "Sani" minaatan kompleksləri, 220 mm TOS-1A reaktiv qurğuları, yeni növ döyüş sursatları, müxtəlif təyinatlı təmir və komanda müşahidə maşınları ilə təmin edilib. Hissə və bölmələrə müasir T-90S, BMP-3, BTR-82A zirehli-tank texnikaları, müxtəlif təyinatlı təmir-təxliyyə maşınları və tədris trenajorları daxil olub.

Sözsüz ki, çətin təbii şəraitdə xidmət edən və torpaqlarımızın qorunması kimi məsuliyyətli bir vəzifəni öhdəsinə götürən hərbi qulluqçuların sosial-məişət şəraiti və əşya-ərzaq təminatı da daim diqqət mərkəzindədir.

İlk növbədə ön xətdə yerləşən və digər hərbi hissələr daha müasir, şəxsi heyətin təhlükəsizliyini daha səmərəli təmin edən zirehli dəbilqələrlə təchiz olunub. Hərbi qulluqçuların geyimlərinin modelində və digər əşya əmlaklarının keyfiyyətində də əsaslı dəyişikliklər baş verib. Onlar birdəfəlik sanitar-gigiyenik ləvazimatlar və digər təsərrüfat əmlakları ilə təmin edilir.

Hərbi hissələrdə şəxsi heyətin qidalanmasının keyfiyyətinin yaxşılaşdırılması və bişirilən yeməklərin çeşidinin artırılması məqsədilə milli yeməklərin hazırlanmasına üstünlük verilir. Qısa bir müddətdə relyefinə görə daşıma yolları çətin, təhlükəli, əlverişsiz, yüksək dağ şəraitlərində yerləşən və uzunmüddətli ərzaq tədarükü edilən hərbi hissələrin şəxsi heyətinin gücləndirilmiş kalorili hazır və keyfiyyətli milli yeməklərlə təmin edilməsi məsələsi həllini tapıb. Həmçinin, ön xətdə yerləşən hərbi hissələrin içməli suya olan tələbatını yaxşılaşdırmaq məqsədilə onlar qablaşdırılmış su ilə təmin olunur.

Ali Baş Komandanın tapşırığı ilə orduda həyata keçirilən mühüm islahatlardan biri də məişət və təsərrüfat fəaliyyəti ilə bağlı vacib tapşırıqların təcrübəli mülki işçilərə və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına həvalə edilməsidir. Hazırda Silahlı Qüvvələrdə təxminən 20 min nəfərədək mülki şəxs və 20 min nəfərədək müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu işlə təmin edilib.

Bu istiqamətdə atılan addımlar bölgə sakinləri tərəfindən də müsbət qarşılanır. Cəbhəboyu rayonlarda əsgəri xidmətini başa vuran yüzlərlə gənc ordunun məişət-təsərrüfat sahələrində işlə təmin edilir, ailələrin sosial şəraitinin yaxşılaşdırılmasına zəmin yaradılır.

Şəxsi heyətin məişət xidmətinin yaxşılaşdırılması məqsədilə bir çox hərbi hissələrdə müasir tipli hamam-camaşırxana kombinatları fəaliyyət göstərir. Bir sıra hərbi hissələrdə yeni kombinatların inşası davam etdirilir.

Hərbi qulluqçuların və onların ailə üzvlərinin xidməti və yaşayış-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə Ali Baş Komandanın göstərişinə əsasən, il ərzində tikinti-quruculuq işləri ilə bağlı böyük proqramlar həyata keçirilib. Artıq müxtəlif qarnizonlarda zəruri infrastrukturla yanaşı, müasir tələblərə cavab verən, həmçinin, ailəli hərbi qulluqçuların ehtiyacları da nəzərə alınmaqla geniş mənzillər, eləcə də yataqxanaların inşa edildiyi 4 hərbi şəhərcik kompleksi hərbi qulluqçuların istifadəsinə verilib. Cari ilin sonunadək daha 6 iri hərbi şəhərcik kompleksinin tikintisinin başa çatdırılması planlaşdırılır. Bir il müddətində 90 hərbi şəhərciyin qazlaşdırılması başa çatdırılıb, 21 hərbi şəhərcikdə isə bu işlər davam etdirilir.

Hərbi hissələrdə hərbi qulluqçuların sosial-məişət şəraitinə diqqətin artırılması, yüksək kalorili qidalarla təmin edilməsi onların arasında xəstələnmə hallarının xeyli dərəcədə azalmasına, immunitetinin artmasına, bir sıra yoluxucu xəstəliklərin - difteriya, qızılca, malyariya, qarın yatalağı kimi təhlükəli infeksiyaların qarşısının tamamilə alınmasına gətirib çıxarıb.

Silahlı Qüvvələrin digər təminat növləri kimi şəxsi heyətin tibbi təminatı da yaxşılaşır, hərbi təbabətimiz inkişaf edir, təkmilləşdirilir. Hərbi həkimlərimiz dünyanın inkişaf etmiş dövlətlərində, o cümlədən Türkiyədə, Almaniyada və digər ölkələrdə ixtisasartırma və təkmilləşmə kurslarında, elmi-praktik konfranslarda iştirak edirlər. Hazırda Türkiyənin Gülhanə Hərbi Tibb Akademiyasında 20 həkim ixtisaslaşma təhsili alır və artıq bu kursları bitirmiş 25 hərbi həkim hospitallarda müvafiq vəzifələrə təyin olunub.

Bu ilin aprel ayında Hərbi Tibb Fakültəsinin istifadəyə verilən yeni inzibati binasında əlverişli təlim bazası formalaşdırılıb, ən müasir standartlara cavab verən Simulyasiya Mərkəzi yaradılıb.

Hərbi hissələrdə onlarla tibb məntəqəsi tikilib. Bir sıra tibb müəssisələri əsaslı təmirdən sonra ən qabaqcıl tibbi avadanlıqla təchiz edilən yeni binalara köçürülüb. Hərbi qulluqçular üçün sanatoriya istifadəyə verilib, Naxçıvan şəhərində, Ələt qəsəbəsində yeni hərbi hospitalların, Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzinin binalarının tikintisi başa çatmaq üzrədir. Bundan əlavə, döyüş mövqeyində olan bütün hərbi hissə və bölmələr təcili tibbi yardım avtomobilləri, diaqnostik tibbi cihaz və avadanlıq, dərman preparatları, fərdi tibbi vasitələrlə tam təmin olunub. Hərbi qulluqçulara erkən ixtisaslı tibbi yardımın göstərilməsi üçün Silahlı Qüvvələrin Baş Klinik Hospitalı sanitar helikopter və reanimobillərlə təchiz edilib.

Silahlı Qüvvələrdə mənəvi-psixoloji hazırlıq işi də daim diqqət mərkəzində saxlanılır. Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissələrdə hərbi psixoloq sisteminin fəaliyyətinə yenidən baxılıb. Psixoloji iş hərbi qulluqçuların hərbi xidmətə çağırıldığı gündən ehtiyata buraxılanadək planlı şəkildə, mütəmadi və davamlı olaraq həyata keçirilir. Silahlı Qüvvələrin şəxsi heyəti ilə xalqımızın tarixi qəhrəmanlarının, İkinci Dünya müharibəsində Vətənimizin qəhrəman övladlarının, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində igidlik göstərmiş Milli Qəhrəmanların həyat və fəaliyyətlərinin öyrənilməsinə dair tədbirlər keçirilir.

Ümummilli liderimizin zəngin həyat yolu və fəaliyyəti, dövlət və ordu quruculuğu, iqtisadi islahatlar, milli şüurun dirçəlişi, milli ideologiyanın inkişafı, gənclərin hərbi vətənpərvərlik tərbiyəsi və digər sahələrdəki siyasi irsini dərindən öyrənmək, nitqlərindən irəli gələn vəzifə və tapşırıqların mahiyyətini hərbi qulluqçular arasında təbliğ etmək məqsədilə "Heydər Əliyev irsini öyrənirik" məşğələləri təşkil olunur.

Müdafiə Nazirliyi ilə icra hakimiyyətlərinin birgə təşkil etdikləri kütləvi hərbi vətənpərvərlik tədbirləri, Azərbaycan torpağı uğrunda canlarını qurban verən digər xalqların nümayəndələri olan Milli Qəhrəmanlarımızın xatirəsinə istər ölkəmizdə, istərsə də xaricdə keçirilən anma mərasimləri də, sözsüz ki, mühüm əhəmiyyət kəsb edir.

Silahlı Qüvvələrdə nizam-intizamın gücləndirilməsi istiqamətində də biz kompleks tədbirlər həyata keçirir, bu sahəyə birbaşa cavabdeh olan zabitlərin ştat sayını artırırıq. Bu, bölükdən tutmuş Müdafiə Nazirliyi Baş İdarəsinin strukturuna kimi olan bir sahəni əhatə edir. Bura fərdi tərbiyədən başlayaraq hərbi kollektivin formalaşması, hərbi qulluqçuların hərbi xidmətə aid olmayan təsərrüfat işlərindən ayrılması, hərbi qulluqçular arasında qarşılıqlı hörmət, nizam-intizama aid hərəkətlər də daxildir.

Müdafiə Nazirliyinin və Respublika Hərbi Prokurorluğunun birgə tədbirlər planına əsasən, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində müvafiq tədbirlər həyata keçirilir. Müdafiə Nazirliyi Xarici İşlər, Gənclər və İdman, Mədəniyyət və Turizm, Təhsil nazirlikləri, Mətbuat Şurası, İnsan Hüquqları üzrə Müvəkkilin Aparatı və digər qurumlarla birgə tədbirlər keçirib. İl ərzində Milli Məclisin deputatlarının, QHT və KİV nümayəndələrinin cəbhə bölgələrinə səfərləri təşkil olunub. Onların şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlıq səviyyəsi ilə tanış olmaları üçün lazımi şərait yaradılıb. Qeyd olunan fəaliyyətlərin bundan sonra da davam etdirilməsi planlaşdırdığımız işlər içərisindədir.

Veteran adlarının və müvafiq vəsiqələrin verilməsi üzrə komissiyaya ictimaiyyətin çoxsaylı müraciətləri nəzərə alınaraq onun işi sürətləndirilib, keçirilən iclasların və baxılan sənədlərin sayı artırılıb. Son bir il ərzində komissiyanın fəaliyyəti təkmilləşdirilərək vətəndaşların müraciətlərinə əsasən, onlara qanunvericiliyin tələbləri çatdırılır, izahedici və məlumatlandırıcı məktublar göndərilir. Keçən dövr ərzində komissiyanın iclaslarında 2 mindən artıq sənədə baxılaraq müvafiq qərarlar qəbul olunub.

Prezident İlham Əliyevin ictimaiyyətlə açıq təmaslarda olmaq tələbi Müdafiə Nazirliyinin fəaliyyətində əsas prinsip kimi rəhbər tutulur. Nazirliyə daxil olan on minlərlə məktub və ərizəyə müəyyən edilmiş qaydada cavablar verilib, tədbirlər görülüb, habelə vətəndaşların qəbulu təşkil olunub.

Müdafiə Nazirliyinin beynəlxalq aləmdəki fəaliyyəti vahid xarici siyasət strategiyasının tərkib hissəsi olaraq dövlətin milli maraqlarının həyata keçirilməsinə və təhlükəsizliyinin təmin edilməsinə yönəldilib. Bu fəaliyyət çərçivəsində, xüsusilə də son illərdə Müdafiə Nazirliyinin beynəlxalq hərbi əməkdaşlıq sahəsində çoxsaylı təşkilatlarla, ikitərəfli və çoxtərəfli əlaqələri inkişaf etdirilməklə daha çox praktiki iş birliyinə üstünlük verilib. Belə ki, ötən bir il ərzində əsas diqqəti müdafiə və təhlükəsizlik sahəsində islahatların aparılmasına, Silahlı Qüvvələrin döyüş qabiliyyətinin və əməliyyat uyarlılığının artırılmasına, hərbi təhsil və tədris istiqamətində qabaqcıl təcrübələrin öyrənilməsinə, sülhməramlı əməliyyatlarda iştiraka, enerji və kibertəhlükəsizliyin təminatına və digər təhlükəsizlik çağırışları ilə mübarizəyə yönəltməklə bir çox silsilə tədbirlər həyata keçirilib.

İndiyədək 34 ölkə ilə hərbi əməkdaşlıq sahəsində hökumətlərarası və qurumlararası yeni hüquq-müqavilə sənədləri imzalanıb, daha 26 ölkə ilə eyni müqavilə sənədlərinin imzalanmasına dair müzakirələr aparılır.

Xüsusilə qeyd etmək lazımdır ki, son bir il ərzində Latviya, Serbiya, Türkiyə, Gürcüstan, Litva, Rusiya, Qırğızıstan və İranın müdafiə nazirləri respublikamıza işgüzar səfərlər edib, bununla yanaşı, Türkiyə Respublikasının Silahlı Qüvvələri və Pakistan İslam Respublikasının Birləşmiş Qərargahı arasında müdafiə sahəsində yüksək səviyyəli dialoq iclasları keçirilib.

Silahlı Qüvvələrin beynəlxalq təhlükəsizliyə və sabitliyə töhfəsi artmaqda davam edir. Belə ki, 2015-ci ildən NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasında Silahlı Qüvvələrin 94 nəfərlik sülhməramlı kontingenti strateji əhəmiyyətə malik Kabil beynəlxalq hava limanını mühafizə edir. Ümumiyyətlə isə, 1999-cu ildən bu günə qədər Silahlı Qüvvələrin 3 minə yaxın hərbi qulluqçusu dünyanın müxtəlif regionlarında keçirilən sülhməramlı əməliyyatlarda iştirak edib.

Müdafiə Nazirliyi, eyni zamanda, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" (SNT) Proqramı çərçivəsində mövcud mexanizmlərdən də səmərəli şəkildə istifadə edir. Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) çərçivəsində Ortaq Qüvvələr Birliyinə bəyan edilmiş Silahlı Qüvvələrin bir taboru NATO-nun qiymətləndirmə təlimlərindən müvəffəqiyyətlə keçərək 2014-cü ildə NATO-nun "Döyüşə hazır" sertifikatını alıb. Bundan əlavə, Silahlı Qüvvələrin bir kəşfiyyat bölüyü də 2015-ci ilin yanvarında ƏİK çərçivəsində Ortaq Qüvvələr Birliyinə bəyan edilib.

Sülhməramlı əməliyyatlar və NATO qərargahlarında digər dövlətlərin hərbi qulluqçuları ilə çiyin-çiyinə xidmət zamanı toplanılan təcrübə Silahlı Qüvvələrimizin qarşılıqlı uyarlılıq səviyyəsinin artırılmasına və müvafiq qabiliyyətlərin əldə edilməsinə imkan yaradıb. Hazırda Silahlı Qüvvələrin 10 zabiti NATO-nun müxtəlif qərargahlarında Tərəfdaşlığın Qərargah Elementi vəzifələrində xidmət edir. Bu xidmət Azərbaycanı NATO ilə əməkdaşlıq edən digər tərəfdaş dövlətlər arasında lider ölkəyə çevirib.

Ötən ilin sentyabrında ilk dəfə Azərbaycanda "ADEX-2014" müdafiə sərgisinin təşkilini də beynəlxalq hərbi əməkdaşlıq sahəsində qazandığımız uğurlar sırasına əlavə etmək zəruridir.

Cari dövr ərzində beynəlxalq inspeksiya qrupları tərəfindən Silahlı Qüvvələrimizdə "Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilə" çərçivəsində "Elan olunmuş yer"in 4 inspeksiyası, "Vyana-11 Sənədi" çərçivəsində isə 1 "Qiymətləndirmə səfəri" və "Göstərilən rayon"un 4 inspeksiyası keçirilib. Eyni zamanda, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin ofisi tərəfindən qoşunların təmas xəttində 24 dəfə monitorinq təşkil edilib.

Sözsüz ki, qeyd edilən bütün bu uğurların əsasında Azərbaycan Prezidenti İlham Əliyevin müdrik və uzaqgörən siyasəti durur.

Ordumuz son bir ildə bütün cəbhə boyu əməliyyat şəraitinə nəzarət etməklə tam hərbi üstünlüyə yiyələndiyini sübuta yetirdi. Biz düşmənə gücümüzü göstərməklə onlara aydın başa saldıq ki, münaqişənin yeganə çıxış yolu Azərbaycan torpaqlarının işğaldan azad edilməsi məqsədilə erməni silahlı birləşmələrinin ərazilərimizi birdəfəlik və qeyd-şərtsiz tərk etməsidir. Düşmən bunu anlamalıdır. Silahlı Qüvvələrin şəxsi heyətinin üzərinə düşən yeganə vəzifə isə düşməni darmadağın etməyə hər an hazır olmaqdır. Biz buna hazırıq və bütün qoşun növlərində döyüş hazırlığının gücləndirilməsi, şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması və döyüş əzminin yüksəldilməsi məqsədilə daim keçirilən döyüş atışlı təlimlər, məşqlər qələbə gününün uzaqda olmadığına sübutdur.

Ordumuzun güclü potensialı tam əminliklə deməyə əsas verir ki, bundan sonra da nəzərdə tutulan bütün işlər, qarşıya qoyulan məqsədlər uğurla yerinə yetiriləcəkdir. Biz Ali Baş Komandan tərəfindən qarşımıza qoyulan bütün vəzifələrin öhdəsindən gəlmək üçün bundan sonra da səy və bacarıqlarımızı əsirgəməyəcəyik.

Bu bayram günündə mən bir daha şəhidlərimizin xatirəsini hörmət və ehtiramla yad edir, onların valideynlərini, ailələrini, Vətən uğrunda sağlamlığını itirən döyüşçülərimizi, veteranları, hazırda düşmənlə təmas xəttində, döyüş növbətçiliyində, qarovul xidmətində, sülhməramlı qüvvələrin tərkibində, xarici dövlətlərdəki missiyalarımızda xidmət edən şəxsi heyəti təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, ailə səadəti və xidmətdə uğurlar arzulayıram.

# Müdafiə Nazirliyinin və Respublika Hərbi Prokurorluğunun bir qrup zabiti cəbhəyanı bölgələrdə yerləşən hərbi hissələrdə olublar

***Müdafiə Nazirliyinin və Respublika Hərbi Prokurorluğunun 2015-ci ilə dair birgə tədbirlər planına əsasən, bir qrup zabit birlikdə 26 İyun Silahlı Qüvvələr Günü ərəfəsində cəbhəyanı bölgələrdə yerləşən hərbi hissələrdə olub.***

Onlar birlik, birləşmə və hərbi hissələrdə müxtəlif kateqoriyalardan olan hərbi qulluqçular, o cümlədən bilavasitə ön xətdə yerləşən hərbi hissələrin şəxsi heyətilə görüşlər keçiriblər. Görüşlərdə şəxsi heyətin vətənpərvərlik ruhunda tərbiyə olunması, hərbi intizamın və hüquq qaydalarının möhkəmləndirilməsi, ordu quruculuğuna mənfi təsir edə biləcək cinayət hadisələrinin təhlili və nəticələrindən asılı olaraq müvafiq tədbirlərin görülməsi, o cümlədən digər məsələlər barədə maarifləndirici söhbətlər aparılıb.

Ümummilli liderimiz Heydər Əliyevin ordu quruculuğu sahəsində dövlət siyasətinin nəticəsi olaraq Silahlı Qüvvələrimiz bütün qoşun növləri üzrə inkişaf edərək möhkəmlənmiş, maddi-texniki bazası gücləndirilmiş və döyüş qabiliyyəti artırılmışdır.

Ümummilli liderimiz, Azərbaycan Silahlı Qüvvələrinin yaradıcısı Heydər Əliyevin siyasi kursu bütün sahələrdə olduğu kimi, ordu quruculuğu sahəsində də möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda iqtisadi inkişafın sürətlənməsi ölkəmizin təhlükəsizlik və müdafiə potensialının möhkəmlənməsinə bilavasitə təsir göstərmiş, Silahlı Qüvvələrdə modern islahatlar aparmağa imkan vermiş, ordunun maddi-texniki bazasının daha da möhkəmləndirilməsinə, eyni zamanda, hərbi qulluqçuların sosial rifahının yaxşılaşdırılmasına zəmin yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti, möhtərəm İlham Əliyevin müntəzəm olaraq cəbhə bölgələrinə səfər edərək əsgər və zabitlərlə görüşlər keçirməsi, xidmətdə fərqlənən hərbi qulluqçulara Vətənin mükafatlarını təqdim etməsi Silahlı Qüvvələrimizin şəxsi heyətində böyük ruh yüksəkliyi yaradır, onları mətin mübarizəyə ruhlandırır.

Yaşayış məntəqələrindən uzaqda, xüsusilə düşmənlə təmas xəttində və çətin şəraitdə qulluq edən hərbi qulluqçuların vətənpərvərlik və döyüş ruhunu, əhval-ruhiyyəsini yüksəltmək, onların asudə vaxtlarının daha maraqlı keçirilməsi, şəxsi heyətə daim diqqət və qayğı ilə əhatə olunmalarını təmin etmək üçün əlavə tədbirlərin keçirilməsi olduqca zəruridir.

Bu məqsədlə hər il Respublika Hərbi Prokurorluğunun təşəbbüsü və təşkilatçılığı ilə Müdafiə Nazirliyi ilə birgə hərbi birləşmələrdə, xüsusilə düşmənlə üzbəüz mövqelərdə dislokasiya olunmuş hərbi hissələrdə hüquqi təbliğat və mədəni-kütləvi xarakterli tədbirlər həyata keçirilir. 26 İyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü ərəfəsində Respublika Hərbi Prokurorluğunun və Müdafiə Nazirliyinin birgə tədbirlər planına əsasən, həmin qurumların məsul əməkdaşları cəbhəyanı bölgələrdə yerləşən hərbi hissələrdə olublar. Onlar əvvəlcə birlik, birləşmə və hərbi hissələrin ön cəbhə xəttindəki səngərlərə gəlmiş, burada əsgərlərlə söhbətlər aparmış, onların xidməti və məişət şəraiti ilə yaxından maraqlanmışlar.

Hərbi hissələrdəki əsgər yataqxanaları və yeməkxana ilə də tanışlıqdan sonra şəxsi heyət ilə keçirilən təntənəli görüşdə çıxış edən Respublika Hərbi Prokurorluğunun və Müdafiə Nazirliyinin məsul əməkdaşları əvvəlcə 26 İyun - Silahlı Qüvvələr Günü münasibəti ilə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və Respublika Hərbi Prokuroru ədliyyə general-leytenantı Xanlar Vəliyevin hərbi qulluqçulara ünvanladıqları təbrik məktublarını oxumuş, ön cəbhədə, düşmənlə təmas xəttində xidmət edən əsgər və zabitlərimizin çətin və şərəfli xidmətlərində onlara uğurlar arzulamışlar.

Daha sonra nümayəndə heyətlərinin üzvləri hərbi qulluqçular qarşısında çıxış edərək, ümummilli liderimiz Heydər Əliyevin gərgin əməyi və misilsiz xidmətləri nəticəsində Respublikamızın suverenliyi və ərazi bütövlüyünü düşmən təcavüzündən qorumaq iqtidarında olan, qarşısına qoyulan hər bir tapşırığı yüksək səviyyədə yerinə yetirən qüdrətli ordumuzun yaradılması və inkişaf etdirilməsi ilə müstəqil Azərbaycan dövlətinin dünyanın siyasi səhnəsində öz yerini tutmasına zəmin yaratmasını qeyd etmişlər. Ulu öndərin ideyalarını layiqincə yerinə yetirən möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla həyata keçirilən möhtəşəm sosial-iqtisadi islahatlar nəticəsində əldə olunmuş sürətli inkişaf, ordumuzun maddi-texniki bazasının gücləndirilməsi, onun müasir silahlarla təchizatı, hərbi qulluqçuların sosial vəziyyətinin, maddi rifah halının və təminatının əhəmiyyətli dərəcədə yaxşılaşdırılması xüsusilə vurğulanmışdır.

Hərbi prokurorluğun əməkdaşları öz çıxışlarında belə tədbirlərin keçirilməsi nəticəsində ötən illərlə müqayisədə Silahlı Qüvvələrdə qeydə alınmış cinayətlərin sayının əhəmiyyətli dərəcədə azalmasını xüsusi vurğulayaraq bu istiqamətdə vəziyyətin daha da yaxşılaşdırılması məqsədilə hərbi kollektivlərdə qanunçuluq, qardaşlıq mühitinin formalaşdırılması, qarşılıqlı sağlam və işgüzar münasibətlərin nizamnamələr çərçivəsində qurulmasının vacibliyini vurğulayıblar. Tədbirlərdə hərbi xidmətdə olan əsgərlərin valideynləri də çıxış edərək hərbi qulluqçulara təbriklərini çatdırmış və yaradılan yaxşı şəraitə görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.

Tədbirlər zamanı hərbi qulluqçuları nümunəvi xidmət etməyə həvəsləndirmək məqsədilə Hərbi Prokurorluğun əməkdaşları tərəfindən xidmətdə fərqlənən 96 hərbi qulluqçuya qol saatı hədiyyə edilib.

Bundan əlavə, hərbi qulluqçuların asudə vaxtlarını səmərəli təşkil etmək məqsədilə Respublika Hərbi Prokurorluğu tərəfindən hərbi hissələrə televizor, elektrik generatoru, kompüter dəstləri və digər zəruri məişət əşyaları təqdim edilib.

Tədbirlər rayon İcra Hakimiyyətlərinin təşkil etdikləri bayram konsertləri ilə yekunlaşıb. Görüşlər zamanı müxtəlif mövzularda təkliflər səsləndirilib və hərbi qulluqçuları maraqlandıran bir sıra suallar cavablandırılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Hərbi Akademiyada məzunların buraxılış mərasimi keçirilib



***Silahlı Qüvvələrin Hərbi Akademiyasında akademiyanın məzunlarının növbəti buraxılış mərasimi keçirilib.***

Mərasimin açılışında Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Buraxılış mərasimində Hərbi Akademiyanın rəisi general-leytenant Heydər Piriyev Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrikini şəxsi heyətə çatdıraraq geniş məruzə ilə çıxış edib.

Sonra general-leytenant Heydər Piriyev və polkovnik Murad Həmidov tərəfindən məzunlara diplomlar və döş nişanları təqdim olunub.



Tədbirin sonunda Strateji Araşdırmalar və Dövlət Müdafiəsinin İdarəetmə Akademik kursunu və əməliyyat-taktiki fakültəsinin yüksək nəticələrlə bitirmiş dinləyicilər akademiyanın yaş kötüyünə xatirə lövhəsi vurublar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələr Günü münasibətilə silsilə tədbirlər keçirilir

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişinə əsasən, Silahlı Qüvvələrin yaradılmasının 97-ci ildönümü münasibətilə Əlahiddə Ümumqoşun Ordusu, birlik, birləşmə, hərbi hissə, xüsusi təyinatlı təhsil müəssisələri və qarnizon (Bakı, Gəncə, Lənkəran və Naxçıvan) zabitlər evlərində tədbirlər planlaşdırılıb.

Plana uyğun olaraq Şəhidlər xiyabanları ziyarət olunur, Silahlı Qüvvələr və müharibə veteranlarının şəxsi heyətlə görüşləri təşkil edilir, yerli icra hakimiyyəti rəhbərliyinin, ictimaiyyət nümayəndələrinin, veteran təşkilatlarının, mədəniyyət və incəsənət xadimlərinin iştirakı ilə silsilə mədəni-kütləvi tədbirlər keçirilir, şəxsi heyətin təntənəli keçidləri, hərbi orkestrlərin parklarda çıxışları, ordu haqqında filmlərin nümayişi və digər silsilə tədbirlər keçirilir.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***25 iyun 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 84 dəfə pozub.

Ermənistan Respublikasının Berd rayonunun Ayqepar və Mosesqex kəndlərində yerləşən mövqelərindən Tovuz rayonunun Əlibəyli və Ağdam kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonunun Qaravəlilər kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Talış, Gülüstan, Tərtər rayonunun Çaylı, Çiləbürt, Ağdam rayonunun Nəmirli, Kəngərli, Şıxlar, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Aşağı Seyidəhmədli, Qorqan, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

* * *

İyunun 23-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax rayonu sahəsində qoşunların təmas xəttində, dağ-meşə şəraitində yolu azan müddətdən artıq həqiqi hərbi xidmət qulluqçuları kiçik çavuş Musayev Musa Sabir oğlu və kiçik çavuş Yolçuyev Tural Sahib oğlunun axtarışları Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə həyata keçirilib.

İyunun 25-də hərbi qulluqçuların meyitləri qarşı tərəfdə minalanmış sahədə aşkar edilib. Görülən tədbirlər nəticəsində cəsədlər ərazidən çıxarılıb və aidiyyəti üzrə təhvil verilib.

Nəsillərə nümunə

# Örnək ömür

***1991-ci ildə Azərbaycanda dövlət müstəqilliyi yenidən bərpa edildikdən sonra ilk olaraq milli ordu quruculuğu prosesinə - Azərbaycan Silahlı Qüvvələrinin yaradılması və formalaşmasına başlanıldı. O zaman Böyük Vətən müharibəsində iştirak edən artıq ehtiyatda olan peşəkar, təcrübəli hərbçilər də istər nəzəri, istərsə də praktik baxımdan köməklərini əsirgəməyərək, Silahlı Qüvvələrimizin təşkil olunmasına öz böyük töhfələrini verdilər. Belə vətənpərvər, ağsaqqal veteranlarımızdan biri də ehtiyatda olan polkovnik Mustafa Məhərrəmovdur.***



Əlamətdar günlərdə xüsusilə, 26 İyun Azərbaycan Respublikası Silahlı Qüvvələr Günündə Məhərrəm müəllimi xatırlamamaq mümkün deyil...

Mustafa Məhərrəmov Böyük Vətən müharibəsinin əvvəllərində yaranan, şəxsi heyətinin tərkibi əsasən azərbaycanlılardan ibarət olan 416-cı Taqanroq diviziyasının döyüşçü qəhrəmanlarından biri olub.

Mustafa Həbib oğlu Məhərrəmov 1923-cü il iyunun 3-də İsmayıllı rayonunun Basqal kəndində dünyaya göz açmışdı. O, 1941-ci ildə orta məktəbi bitirdikdən sonra İsmayıllı rayon Hərbi Komissarlığına cəbhəyə getmək üçün ərizə ilə müraciət edir. Lakin yaşı çatmadığına görə 17 yaşlı Mustafanın ərizəsini qəbul etmirlər. İnadından və məqsədindən dönməyən Mustafa ikinci dəfə də cəhd edir. Növbəti cəhdi uğurlu alınan Mustafa nəhayət, 1941-ci ilin dekabrında könüllü olaraq cəbhəyə faşizmlə ölüm-dirim savaşına yola düşür.

Gənc Mustafa Tiflis şəhərindəki artilleriya məktəbində müharibə dövrünün tələbindən irəli gələn ixtisas hazırlığı kursunu altı ay ərzində bitirərək, leytenant rütbəsində 416-cı atıcı diviziyasına göndərilir. Diviziyanın tərkibindəki 1374-cü alayın atıcı taqımının komandiri təyin olunan gənc leytenant Mustafa Məhərrəmov əsgərlərinin döyüş hazırlığı ilə ciddi məşğul olur və onlarda düşmənə qarşı barışmazlıq hissləri - nifrət, kin tərbiyə edir. Gənc komandir alayın hücum əməliyyatlarının birində iki düşmən tankını məhv edir, neçə-neçə atəş nöqtəsini susdurur və müşahidə məntəqəsini dağıdır. Döyüşlərdə göstərdiyi xüsusi şücaətlərinə görə taqım komandiri leytenant Mustafa Məhərrəmov "Qırmızı Ulduz" ordeninə layiq görülür. Gərgin döyüşlərin birində ağır yaralanan M.Məhərrəmov müalicə almaq üçün hospitala göndərilir. Yaralarının tam sağalmasını gözləməyən gənc zabit yenidən döyüşlərə atılır və 402-ci Azərbaycan Atıcı diviziyasında batareya komandiri təyin olunur. M.Məhərrəmov faşizm üzərində böyük qələbəyə qədər ön sırada olur və ən ağır, əhəmiyyətli döyüşlərdə göstərdiyi igidlikləri ilə fərqlənir. Böyük Vətən müharibəsi qələbə ilə başa çatdıqdan sonra Mustafa Məhərrəmovun komandirlik bacarığı yüksək qiymətləndirilir. O, 1951-ci ildə təhsilini davam etdirmək məqsədilə Leninqraddakı Topçuluq Akademiyasına göndərilir. 1956-cı ildə akademiyanı uğurla bitirən M.Məhərrəmov Türküstan Hərbi Dairəsində xidmətə başlayır. O, divizion komandiri, diviziya qərargahı rəisinin müavini, Daşkənd Hərbi Məktəbində baş müəllim vəzifələrində xidmət edir.

Sonralar Mustafa müəllim orduda xarici ölkə zabitlərinə dərs keçmək zərurəti ilə əlaqədar Xarici Dillər İnstitutuna daxil olur və ingilis dili ixtisası üzrə oranı müvəffəqiyyətlə bitirir. 1966-cı ildə Vətənə dönən Mustafa Məhərrəmov Azərbaycan Politexnik İnstitutunun hərbi kafedrasına tədris hissə rəisi vəzifəsinə təyin edilir. O, bu tədris müəssisəsində qazandığı bilik və təcrübələrini tələbələrinə öyrədir və məzunları zabit rütbəsinə təqdim edirdi. Burada işlədiyi dövrdə yüksək peşəkarlığı ilə seçilən Mustafa müəllim "Təhsil əlaçısı" döş nişanı ilə təltif olunur. 1979-cu ilin yanvarında SSRİ Müdafiə nazirinin təşəkkür əmri ilə ehtiyata buraxıldıqdan sonra M.Məhərrəmov 13 il Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda xüsusi şöbənin müdiri vəzifəsində çalışır.

Müstəqil Azərbaycanda ordu quruculuğuna başlanan vaxtlarda ehtiyatda olan polkovnik M.Məhərrəmov Azərbaycan Respublikası Müdafiə Nazirliyi sistemində çalışmağa başlayır. O, Hərbi Elmi Tədqiqat Mərkəzində normativ sənədlərin işlənib hazırlanması üzrə şöbənin rəisi və Müdafiə nazirinin hərbi strateji məsələlər üzrə müşaviri vəzifələrində işləyir. Mustafa müəllim hansı vəzifədə olursa-olsun, hərbi mütəxəssis kimi özünün əməli-nəzəri, elmi potensialını nümayiş etdirərək yorulmadan çalışmışdır. O hər biri 9000 min sözlük olan "Rusca-Azərbaycanca hərbi lüğət", "Azərbaycanca-rusca hərbi lüğət" və 18000 min sözlük "Türkcə-Azərbaycanca hərbi lüğət" kitablarının müəllifidir. 90000 min sözlükdən ibarət Türk-fars-ərəb-Azərbaycan hərbi lüğəti" Mustafa müəllimin ömrünün son dövrlərində üzərində işlədiyi kitablarından idi. Lakin amansız ölüm həmin lüğəti axıracan işləyib hazırlamağa imkan vermədi... Mustafa müəllimin əziz xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayacaq. Onun keçdiyi mənalı, şərəfli ömür yolu hər kəsə örnəkdir.

**Kamran BEHBUDOV,**
**professor**

# Ordu xalqın ruhudu

***26 iyun gününün mahiyyəti duyana nələr deyir!..***

***Silahlı Qüvvələr Günü məmləkətimizin ruhuna ad olan günlərdən biridi!..***

***Hər ötən gün tarixdi. Sabahlar bu gün yaşanıldığından illər də, aylar da, günlər də ömür dəyərində gözəldi. Ömür dəyərində gözəl günlərdən biri də 26 İyundu - Silahlı Qüvvələr Günü.***



Neçə gündü könül xoşluğu bildiyim bir ovqatın cazibəsindəyəm: Birinci Avropa Oyunlarında Azərbaycanın Silahlı Qüvvələrini təmsil edən Rəsul Çunayev yunan-Roma güləşi üzrə final görüşündə də qalib gəldi. Azərbaycan əsgəri idmanda - yarışda kimliyini, nəyə qadir olduğunu bir daha təsdiqlədi. İdmançı kimi qələbəsiylə, qələbədən sonra üçrəngli bayrağımızı bağrına basaraq hərbçi kimi Ali Baş Komandana raport verməklə tarix yazdı…

Azərbaycan əsgərinin adından verilən raportun zahiri anlamı "Qalib gəldim!" olsa da, mahiyyəti "Torpaqlarımızın işğaldan azad edilməsi üçün döyüşə də hazıram!" fikrini ifadə edirdi. Həm də Silahlı Qüvvələr Günü ərəfəsində…

Xəyalımda Cıdır düzü canlandı: açıq havada beynəlxalq güləş yarışıdı. Rəsul yenə qalib gəlib. Əlində dalğalanan Dövlət bayrağımızın məğrurluğuna təslim olmuşuq…

Bu gün Silahlı Qüvvələr Günüdü. Xidmət edən zabit dostlarımla da, tərxis olunanlarla da, zamanında əsgər olanlarla da təbrikləşmişdik. Dayanacaqda Füzuliylə səmimi görüşümü görən, söhbətimizi eşidən bir ağsaqqal ikimizi də ərklə qınadı; "Bu təbrikdən hamımıza pay düşür. Silahlı Qüvvələr Günü hamımız üçün əziz gündü. Mən dost-tanışımı təbrik eləyirəm, siz ancaq hərbçiləri. Ordu ilə xalq ayrılmaz, oğul. Ordu xalqın ruhudu. Hamımız bu ruhun zərrəsiyik. Hərbçi də, mülki də. Cavan da, qoca da…"…

Tanımadığım ağsaqqalın kəlmələrini xalqın yaşam fəlsəfəsi bildim… Bu gün neçə-neçə hərbi hissəyə gələn analar oğul bildiyi əsgərlərə bayram sovqatı aparıb, bilmirəm; belə gəlişləri ezamiyyətdə olanda Tərtərdə, Ağdamda, Tovuzda… çox görmüşəm. "Gəlişinizə ürəyimi sərərdim…" - demişəm onlara. Qınayıblar məni. "Elə demə, ay oğul" - deyiblər. "Ananın balasıyla bayramlaşmağa gəlişi matah iş deyil. Ruhumuzun ziyarətinə gəlmişik".

Tarixən yaranan dövlətin ordusu müxtəlif üsullarla, vasitələrlə təşkil olunub. Bu müxtəliflik dövlətin dövlət quruluşundan, dövlətin iqtisadi səviyyəsindən, xalqın orduya, müəyyən mənada baş sərkərdəyə (dövlətin başçısına) münasibətindən asılı olub. Bu səbəbdən də bu və ya digər dövlətin sərhədlərini bəzən öz ordusu, bəzən siyasi baxımdan sığındığı dövlətin ordusu qoruyub. Azərbaycanın öz qılıncının qəbzəsindən öz əli yapışıb, yadların köməyinə möhtac olmayıb. Cavanşirin (VI əsr), Xətainin (XVI əsr), Cavad xanın (XIX əsr) ordusu bütövlükdə xalq idi. Xalq indi də öz dövlətinin, öz ordusunun cəfakeşidi. Canında təpər olanlar özünü ordumuzun əsgəri bilir:

Ötən ilin avqust hadisələrini xatırlayıram. Onda minlərlə yeniyetmə, cavan, qoca döyüş bölgələrinə getmək istəyirdi. Yaşadığım məhəlləyə çatanda yaxından tanıdığım Mərdan kişinin səsini eşitdim. Tay-tuşlarıyla kəlmələşirdi: "Ağlı başında olan yaxasını kənara çəkməz. Nə ki, nəfəsimiz üstümüzdədi, əsgərik. Əsgərin yeri səngərlərdi. Belə bir vaxtda döyüşlərdən uzaqda olmaq kişilik deyil. Biz də sırada olmalıyıq!". O sıra müqəddəs ömür yaşayanlarımızın - hərbçilərimizin sırasıdı. Ərazi bütövlüyümüzün təminatçısı olan hərbçilərimizin, işğalçı dövlətin həmlələrinin, hücumlarının qarşısını alan hərbçilərimizin, torpaqlarımızın işğaldan azad edilməsi üçün gecələr yuxu payını səngərlərə üzərlik bilən hərbçilərimizin; o sıra ruhumuzun üstünə əsdirilən (əsdirilə biləsi) yellərin qarşısını kəsir...

Bunları nədən xatırladım? Mərdan kişi kimi vətəndaşlarımız həmişə xalqı təmsil edib. Onların düşüncələrini ümumən xalqın düşüncəsi bilmişəm...

26 İyun Silahlı Qüvvələr Günüdür.

Silahlı Qüvvələrimiz 20 il əvvəl belə deyildi; vahid komandanlıq yox idi, komandirlərin əksəriyyətinin səriştəsi, hərbçi təxəyyülü irimiqyaslı hərbi əməliyyat aparmağa imkan vermirdi. Etiraf edilməlidir ki, bəzən əsassız ambisiyalara görə ordu quruculuğunda da "mən" "biz"i üstələyirdi. Torpaqlarımızın işğal edilməsi, dövlətçiliyin itirilməsi təhlükəsi həm də bu səbəbdən yaranmışdı. Xalq xilaskar kimi ümummilli liderimiz Heydər Əliyevi Bakıya dəvət elədi. Dövlətçiliyimiz xilas edildi. Ordu quruculuğunda da əsaslı dönüş yaradıldı; yerli özünümüdafiə batalyonları ləğv edilərək vahid komandanlığa tabe edildi, ordu yenidən quruldu, hərbi nəzəriyyələrin tələbləri əsasında formalaşmağa başladı.

1994-cü ilin aprel ayında ezamiyyətdəydim. Zabitləri də, əsgərləri də bir ayrı biçim ovqatda gördüm. "Heydər Əliyev gəlmişdi. Səngərlərdə əsgərlərlə söhbət elədi, məsləhətlər verdi. Gördük ki, dövlət bizə inanır, güvənir. Bu inam hər birimizin - zabitlərin də, əsgərlərin də əzmini, iradəsini artırdı". Onda batalyon komandiri mayor (indi general-leytenant) Rövşən Əkbərov belə dedi. Silahlı Qüvvələrimizin daha dinamik inkişafında bu amilin təsiri olduqca böyük olub. Dahi rəhbər ordumuzun formalaşması naminə bütün zəruri tədbirləri gördü, Silahlı Qüvvələrimizin bugünkü gücü, qüdrəti üçün əsaslı zəmin yaratmağa nail oldu.

Prezident İlham Əliyevin tövsiyələriylə ordu quruculuğunda aparılan islahatlar qısa vaxtda Silahlı Qüvvələrimizin Cənubi Qafqazda ən güclü ordu olmasını təmin etdi. Ordumuz ən müasir silahlarla, texnikalarla təmin olunur, əsgər və zabitlərimizin mənəvi-psixoloji hazırlığı yüksəldilir. Son vaxtlar həyata keçirilən irimiqyaslı təlimlər təsdiqlədi ki, Azərbaycan Ordusu ərazi bütövlüyümüzü qorumağa da, torpaqlarımızı işğaldan azad etməyə də qadirdir...

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əsgər amilinə verdiyi dəyər Silahlı Qüvvələr Gününün mahiyyətinin mənəvi düsturudu: "Ən yaxşı silah yaxşı təlim görmüş əsgərdir"...

26 İyun Silahlı Qüvvələr Günüdür. Bu gün hamımız üçün əzizdir. Hər bir vətəndaş üçün...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

Məsul katib
polkovnik-leytenant
İlham BEHBUDOV

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
Rəşid HÜSEYNOV

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 557
Nüsxə 4600